BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2007

# SƏUDİYYƏ ƏRƏBİSTANI ƏDƏBİYYATINDA ROMAN JANRI VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ

**V.H.CABAROVA**
*Bakı Dövlət Universiteti*

Səudiyyə Ərəbistanı romanı onun ümumərəb səviyyəsinə yüksələrək bir çox ərəb ölkələrinin oxucularının məhəbbətini qazanmış poeziyası, bu gün Gi de Mopassan, A.P.Çexov, Mahmud Teymur hekayələri ilə bərabər tutulan, ərəblərin özlərinin operativ şair adlandırdıqları və əllidən çox əcnəbi dilə tərcümə olunmağa layiq görülmüş novella (qısa hekayə) ilə müqayisədə çox gec yaranmışdır. Onun novella ilə povest (uzun hekayə) arasında bərqərar olan və Səudiyyə ədəbiyyatşünası Məhəmməd Saleh əş – Şantinin roman hesab etdiyi ilk primitiv nümunələri 1914-cü ildə Məhəmməd Hüseyn Heykəlin Qahirədə nəşr olunmuş ilk Misir milli romanı «Zeynəb»dən 20 il sonra çapdan çıxmışdır. Bunlar Əbdü-l-Qəddus əl-Ənsarinin «Əkizlər», Məhəmməd Əli Məğribinin «Oyanış» və Əhməd əs-Sibainin «İdeya» romanları idi... Biri milli ərəb, ikincisi yeni açılmış ingilis məktəbində təhsil alan iki əkiz qardaşın talelərindən bəhs edən bu roman ərəbi öz milli zəminindən qoparıb, milli dəyərlərdən uzaqlaşdıraraq onu manqurta çevirən əcnəbi dildə təlimə qarşı yönəlmişdir.

İkinci romanı xaricdə təhsil alarkən əcnəbi bir hindli qızla evlənmiş səudiyyəlinin öz ata və anası ilə əlaqələrindən, onun ailəsinin dağılmasından bəhs edir və müəllif evlənmək məsələsində milli əlaqələrin qorunmasının zərurətini vurğulayır. Üçüncü roman patriarxal ənənələrə qarşı üsyan edib şəhərə köçən bir kəndli qızının şəhərdə başına gələn bəlalardan danışır. Şəhər mühitinin oyanmış kəndli qızı üçün hazır olmadığını başa düşən qəhrəman geri dönür və ata iradəsinə tabe olur. Müəllif oyanmaq istəyən qızların taleyinə elə bil ki, acıyır və cəmiyyətin özünü oyanmağa dəvət edir, dildə müsəlman olub, əməldə vəhşi heyvandan fərqlənməyən kişilərə əxlaq dərsi verir.

Bu üç romandan sonra ədiblərdən roman janrına həvəs elə bil ki, azalır. Səudiyyə Ərəbistanında roman yaradıcılığının ikinci dalğası İkinci Dünya müharibəsindən sonra əllinci illərdə başlayır.

Əsl milli romanın yaranmasının bu qədər gecikməsinin səbəbi bədii istedadların azlığı deyil. Doktor aş-Şaiti çox haqlı olaraq yazır ki, roman tanrı açıq cəmiyyətdə yarana bilər. Səudiyyə Ərəbistanı cəmiyyəti nəinki canlı, həm də mühafizəkar bir cəmiyyət olmuşdur. Bir çox mövzular, o cümlədən qadın emansipasiyası, dövlət aparatının qulluqçularının tənqidi rəsmi olmasa da qeyri-rəsmi qadağa altında idi. Səudiyyə cəmiyyətinin əsas ideologiyası olan Səfiyyə ideologiyasının birmənalı qəbul olunmaması da onun xarici əlaqələrinin inkişafına müəyyən əngəllər

törədirdi. Səudiyyə Ərəbistanında roman janrında geniş panorama yaratmaq üçün lazım olan ictimai-siyasi şərait yox idi. Ölkə iqtisadiyyatı manufaktur istehsal üzrə inkişaf edir. Bu əlbəttə o demək deyildir ki, Səudiyyə gerçəkliyində roman şairi üçün material yox idi. İkinci Dünya müharibəsinə qədər bu materiallar sadəcə olaraq bəsit idi. Cəmiyyətin üzvləri arasında ictimai əlaqələr zəif idi. Hər bir ərəb ailəsi elə bil ki, öz aləminə qapılıb yaşayırdı. Müxtəlif siyasi platformalara mənsub olan qruplar belə öz mövqelərini büruzə vermir, ya susur, ya da ölkədən çıxıb gedirdilər. Səudiyyə Ərəbistanında kapitalizm istehsalat münasibətləri əvvəlcə Hicazda, daha doğrusu Məkkədə və Mədinədə yaranmağa başlayır. Bu iki şəhər cəmiyyətinin həyatında tikinti işləri başladı. Torpaq satqısı və uca binaların tikintisi şəhər camaatını səfərbər etməklə bərabər bədəvi ərəblərin də şəhərə axmasına səbəb oldu. Köhnə ictimai və mədəni əlaqələr yeniləri ilə əvəz olunmağa başladı. Təlim-tərbiyə, nikah problemləri ətrafında yerli camaat arasında mübahisələr başladı. Buraya yeni yaranmış tacirlər, dövlət qulluqçuları, özəl şirkətlərin sahibləri, xaricdə təhsil alaraq əcnəbi mədəniyyəti ilə yaxından tanış olan mütəxəssislər də qoşuldu. Yeni yaranmış ictimai-iqtisadi şəraitdə Səudiyyə cəmiyyətinin problemi ilə maraqlanan romanistlər ortaya çıxdı. Görkəmli romanist Hamid əd-Dəmənhurinin başçılığı ilə ortaya çıxan Həmzə Buqiri, Fuad əl-Ənqavi, İbrahim Naser kimi yazıçılar yeni yaranmış vəziyyətin problemlərini öz romanlarının mövzularına çevirir və bədii cəhətdən yüksək qiymətləndirilən romanlar yazırdılar. Bu romanlardan ədəbi tənqid tərəfindən böyük uğur kimi qiymətləndirilmiş «Payız buludları» (İbrahim ən – Naser), «Yox yuxu deyil» (Fuad Sadeq Mufti) və «İki nəsil arasında» (Məhəmməd Uqeyl) romanlarını da qeyd etmək olar. Bu dövrün aparıcı mövzularından biri də ailə və nikah problemi ilə bağlıdır. Bu sahədə Amal Şatanın «Sabah unudacam», İsam Xuçirinin «Fırfıra» romanları xüsusi yer tutur. Birinci romanın mövzusu xaricdə təhsil alıb, insanlardan xoş münasibət görmüş bir qızın həyatıdır. Öz vətəninə qayıdıb, özəl şirkətlərdən birində işə düzələn bu qız onunla işləyən kişi həmkarlarından gördüyü kobudluq və təkəbbür nəticəsində kişilərə qarşı bir nifrət hiss etməyə başlayır. O heç vaxt ərə getməyəcəyinə söz verir və kişilərdə qadına qarşı belə münasibətin səbəbi barədə fikirləşir. Özünü onunla bir yerdə təhsil alan açıq-saçıq, yarı çılpaq əcnəbi qızlarla müqayisə edir və onlardan hər cəhətdən üstün olduğu halda kişilərin ona və onun timsalında başqa müsəlman qızlarına həqarətlə, ikinci dərəcəli bir insan kimi baxmalarını sosial bir ədalətsizlik kimi qiymətləndirir. Roman sualla bitir. Elə bil ki, bu sual müəllif tərəfindən cəmiyyətə verilir və nəfsini əqlinə tabe edə biləcəksənmi?!

Bu dövrün yadda qalan romanlarından biri də Ömər Tahir Zeylağın «Qabıq» romanıdır. Bu roman Səudiyyə ədəbiyyatı tarixində ilk fəlsəfi romandır. Maraqlı təhkiyə üsuluna malik olan bu roman Səudiyyə cəmiyyətinin gələcəyi haqqında düşüncələrdir.

Doxsanıncı illərdən etibarən Səudiyyə Ərəbistanı ədəbiyyatının roman şairi sahəsində güclü bir sıçrayış baş verir. Bu sıçrayış ilk növbədə neft sənayesinin inkişafı ilə bağlı idi. Neft sənayesi hesabına ölkədə elə güclü bir inkişaf hakim kəsildi ki, cəmiyyətin həyatının bütün sahələrinə, ilk növbədə sosial və iqtisadi sahələrə qüdrətli təkan verdi. Əhalisi bir tikə çörək qazanmaq üçün Misirə, Suriyaya, Livana gedib orada iş axtarmağa məcbur olan Səudiyyə özü hər il altı milyon əcnəbi işçi qəbul etməyə

başladı. Neftdən gələn gəlirin müəyyən bir hissəsi iqtisadiyyatın müəyyən sahələrinin inkişafına yönəldildi, saysız-hesabsız proyektlər həyata keçirilməyə başladı. Ölkədə məktəblərin, ali təhsil ocaqlarının, mədəniyyət müəssisələrinin və mətbəələrin sayı çoxaldı. Dəniz sularını içməli vəziyyətə gətirmək üçün hər birində 10 min adam işləyən ona qədər zavod, saysız-hesabsız neft emalı müəssisələri fəaliyyət göstərməyə başladı. Əcnəbi dövlətlərlə əlaqələr yaradıldı, Səudiyyənin ərəb dövlətləri ilə təması genişləndi və dərinləşdi. Səudiyyənin bu qardaş ölkələrin sənaye və kənd təsərrüfatının inkişafına investisiya qoyuluşu başladı. Məkkə dünya müəssisələrinin qibləsi olduğu kimi ər-Riyad da ərəb dövlət başçılarının qibləsinə çevrilir. Bir iki ölkə istisna olmaqla yerdə qalan ərəb dövlətlərinin başçıları hər hansı böyük bir işə başlamamışdan əvvəl Səudiyyə kralının yanına məşvərətə gəlirlər.

Səudiyyədə yaranmış yeni ictimai siyasi-iqtisadi, mədəni vəziyyət özünü ədəbiyyatda da göstərir. Abdu-l-Əziz Məşri qüdrətli bir romanist kimi məhz bu mərhələdə ədəbi fəaliyyətə başlayır. Sənətkarlıq xüsusiyyətlərinə, təhkiyə üsuluna, qəhrəmanların xarakterini hərtərəfli açmaq bacarığına görə bu ədib Qarsia Markes ilə bərabər tutulur. Onun «al-Vasmiyyə», «əl-Ğuyum va mənəbitu-ş-şacər» və «Rihu-l-Kədi» trilogiyası Səudiyyə Ərəbistanında baş verən ictimai-siyasi-iqtisadi və mədəni dəyişikliklərin bədii salnaməsi hesab edilir. Bu romanlardan ikincisi Səudiyyə kəndində baş verən dəyişikliklərin və bu dəyişikliklərin kəndlilərin həyatına gətirdikləri yeniliklərdən danışır. Bu romanlarda ilk dəfə olaraq dialoqlar xalq danışıq dilində verilir. Qeyd etmək lazımdır ki, müəllif Səudiyyə cəmiyyətində baş verən bütün dəyişikliklərə sevinmir. Onun kənd həyatında baş verən yeniliklərin, sənayeləşdirilmiş fermaların, mexanikləşdirilmiş tarlaların sakit kənd romantikasını aradan qaldıracağı barədə daxili bir narahatçılıq ifadə edir. Şəhərin səs-küyünə, onun hərəki ritminə, darısqal küçələrinə, insanı azad nəfəs almağa qoymayan mühitindən can qurtarmaq üçün kəndə köçüb gəlmiş qəhrəmanlarından biri cənnət hesab edilən kəndin həyatı ilə şəhər həyatından olan oxşarlıqdan danışır, iqtisadi yeniliklərin insan münasibətlərinə mənfi təsir etdiyini söyləyir, səmimiyyət və mehribançılığın aradan çıxacağından ehtiyat edir. Trilogiyanın qəhrəmanı, Səudiyyə gerçəkliyinin orta təbəqəsinin tipik nümayəndəsidir. O, ölkənin inkişafı ilə inkişaf etmiş, xaricdə təhsil almış, bir çox şirkətlərdə işləmiş və dövlət qulluğunda bərqərar olmuşdur. Onun tərcümeyi-halı ölkənin inkişaf tarixidir.

«Səudiyyə» romanını təhlil edən ədəbiyyatşünaslar doxsanıncı illərdə yaranmış yeni bir roman növündən danışır və onu əxlaqi roman adlandırırlar. Şübhəsiz ki, mənəvi-əxlaqi problemlərə bütün romanlarda rast gəlmək olar. Lakin əxlaqi romanlar Səudiyyə cəmiyyətində mənəvi-əxlaqi problemlərin kəskin surətdə ortaya çıxdığı bir zamanda yaranmışdır. İş burasındadır ki, Səudiyyə cəmiyyətində baş verən iqtisadi-sosial və mədəni yüksəliş səudiyyəlilərin bir-birinə münasibətində bir çox mənəvi-əxlaqi məsələlər islam ehkamlarına xas olmayan xarakter kəsb etməyə başlayırdı. Cəmiyyətin üzvlərində mənəvi-əxlaqi məsələlərdə söz və iş arasında parçalanma ortaya çıxırdı. Dildə adət-ənənələrə, dini və milli dəyərlərə sadiq olanlarda belə işdə, əməldə onlara qarşı bir biganəlik gözə çarpırdı. Xüsusilə atalar və oğullar məsələsi kəskin nəticələrə gətirib çıxarırdı. Artıq dövlətlənmiş səudiyyəlilər xarici ölkəyə və hətta Misir və Livan kimi açıq cəmiyyətlərə səfər edəndə elə bil ki, müsəlman olduqlarını unudur,

vaxtlarını kazinolarda, gecə klublarında keçirirdilər. Maliyyə azadlığı əldə etmiş adamlar çox vaxt adət-ənənəyə məhəl qoymur, böyüyə hörmət, kiçiyə izzət, anaya ehtiram göstərmir, böyük məsləhəti saymırdılar. Mənəvi-əxlaqi dəyərlərə hörmət problemi qəzet səhifələrinə çıxarılır və xalq tərəfindən geniş şəkildə müzakirə olunurdu. Şübhəsiz ki, yaradıcılığı xalq həyatının güzgüsü olan vətənpərvər ədiblər də bu məsələdən kənarda qala bilməzdi. Əxlaqi roman adlandırılan roman növü də onların bu problemə olan reaksiyaları idi. Bu romanlarda mənəvi-əxlaqi dəyərlər bir növ təmərküzləşmiş şəkildə verilir və əsas süjet xətti onların üzərində qurulurdu. Tahir Aud Səlləmin «Basdırılmış sandıqça», Məhəmməd Zira Uçeylin «Nəsillər arasında», «Əfi ilanlar yuvası», «Kül olmuş hisslər» və «Günəş yenidən işıq saçsın» romanları bu qəbildəndir.

Demək lazımdır ki, Səudiyyə cəmiyyətinin ən mühüm problemlərindən olan əxlaqi-mənəvi dəyərlərə sadiqlik bu dövrdə yaranmış tarixi romanlarda da ön plana çəkilirdi. «Qızıl yol» romanının müəllifi Fuad əl-Ənqavi, «Yaşıl vadi» romanının müəllifi Qalib Həmzə Əbu-l-Fərəc və «Qoy işıq daha parlasın» romanının müəllifi Safiyyə Əhməd Bağdadi ərəblərin şanlı keçmişində mühüm rol oynamış xalq qəhrəmanlarının, qan tökülməsini dayandırmış qəbilə başçılarının və dünyagörmüş müdrik şeyxlərin həyatlarına həsr etdikləri əsərlərində ərəblərə xas olan comərdlik, səxavətlik, dözümlülük, cəsarət, cürət qorxmazlıq, haqq yolunda mübarizlik, böyüyə hədsiz hörmət, kiçiyə izzət, ataya-anaya müqəddəs bir varlıq kimi baxmaq keyfiyyətləri aşılayır, əcnəbi qarşısında baş əymək, ona tabe olmaq, onun təsiri ilə manqurtlaşıb xalqa xor baxmaq, onun adət-ənənəsini xəyanət etmək kimi xudpəsənd keyfiyyətlərə ikrah hissi oyadırdılar. Tarixi romanlarda xalq rəvayətlərindən, tarixi məxəzlərdən, ədəbiyyat və xüsusilə poeziya tarixindən seçilmiş qəhrəmanların həyatından bəhs edən bu əsərlərdəki əyanilik xüsusilə təsirli olurdu. Heç təsadüfi deyil ki, doxsanıncı illərdə yazılmış bu romanlar bu gün də sevilə-sevilə oxunur. Bu baxımdan Səudiyyənin nisbətən yaxın tarixindən şəhərin müdafiəsi ilə əlaqədar tarixi bir fakt əsasında Məhəmməd Abdo İəməlinin «Hail qızı» (Hail şəhər adıdır) romanı xüsusi əhəmiyyət kəsb edir. Müəllifin yaratdığı bu qəhrəman qız obrazı səudiyyəli qızların bənzəmək istədikləri bir nümunəyə çevrilmişdir.

Bununla belə Səudiyyə ədəbiyyatında roman janrının aparıcı növü cəmiyyətdə baş verən iqtisadi-sosial dəyişikliklər nəticəsində yaranmış həyat tərzi, ictimai münasibətlər və insanlar arasında mövcud və yaranmaqda olan əlaqələri hərtərəfli ehtiva edən, onu yüksək bədii şəkildə göstərə bilən realist sosial-ictimai roman növüdür. Buraya Abdulla Cefrinin «Yuxunun bir cüzü», İsam Xuqirinin «Qanadsız quşlar», Abduləziz Əs-Saqbinin «Kömürün ətri» və Fuad Xuqirinin «Rəndəqilər məhəlləsi» romanlarını daxil etmək olar. Bu roman sahiblərinin hər biri öz əsərlərində Səudiyyə cəmiyyətinin geniş panoramasını vermişdir. Maraqlı kompozisiyaya malik olan bu romanların süjet xətləri çoxşaxəli hadisələr, epizodla, kəskin dönüşlərlə yadda qalır. Müəlliflər ön plana çəkdikləri qəhrəmanlarını elə belə təsvir etmir, onların xarakterini başqa personajlarla münasibətdə açıb göstərir. Bəzən müəllif öz qəhrəmanını dərin psixoloji vəziyyətə salıb, öz hərəkətlərini qiymətləndirməyə məcbur edir. Bu qəhrəman oxucunun gözü önündə yetkinləşir, püxtələşir, paklaşır, müdrikləşir.

Səudiyyə Ərəbistanı romanlarında iki maraqlı xüsusiyyət özünü

açıq-aydın şəкildə büruzə verir. Bu cəhətlərdən biri ali dövlət struкturlarına, Kral və onun qohumlarından ibarət əhatə dairəsinə diqqət yönəldilmir. İкinci maraqlı cəhət isə ölкənin əsas ideologiyası olan və dini ehкamları bir qədər özünəməxsus şəкildə izah edən sələfiliк (vahhabizm) müzaкirə obyeкtinə çevrilmir. Son zamanlar Səudiyyə Ərəbistanı romanında yeni bir növ, eкsperiment xaraкterli roman-esse yaranmağa başlayır. Bu vahid süjet xətti üzrə bağlı ayrı-ayrı esselərdən ibarət romandır. Bu esselərin heç biri məhəlli mühitlə bağlı olmayıb, müəyyən ictimai hadisələr ətrafında fəlsəfi düşüncələrdən ibarətdir. Bu səpкidə «Dörd/sıfr» adlı ilк romanın müəllifi Racə Alimə nüfuzlu «İbn Zeydun muкafatı» verilməsi onun ədəbi tənqid tərəfindən xoş qarşılanması кimi qiymətləndirilə bilər.

Beləliкlə, Səudiyyə Ərəbistanı ədəbiyyatında roman janrının formalaşması və inкişafında dörd mərhələnin olduğunu deməк olar.

Birinci mərhələ кeçən əsrin 30-cu illərində başlayaraq İкinci Dünya müharibəsinin sonuna qədər davam edir. Bu dövrə mənsub olan ədiblərdən Əbdü-l-Qəddus əl-Ənsarini, Əhməd Əs-Sibəini, Məhəmməd Əli Məğribini göstərməк olar.

İкinci dövr İкinci Dünya müharibəsindən başlayaraq yetmişinci illərin sonuna qədər davam edir. Bu dövr ədiblərin başında bütün ərəb dünyasında qüdrətli bir romanist кimi şöhrət tapmış Həmid Dəmənhuri durur. 30 ildən çox bir müddəti əhatə edən bu dövrdə Həmid Dəmənhuri ilə çiyin-çiyinə Həmzə Buqiri, Fuad Ənqavi, İbrahim Ən-Nasir, Əməl Şata, İsam Xuqiri, Ömər Tahir Zeylağ кimi romanistlər də fəaliyyət göstərmişlər.

Üçüncü dövr yetmişinci illərin sonundan 1995-ci ilə qədər davam etmişdir. Bu dövrdə ölкədə baş verən кöкlü dəyişiкliкləri öz əsərlərində əкs etdirmiş Əbdüləziz Məşri, Taha Aud Sələm, Məhəmməd Zira Üqeyl və Yəməni Abdo Məhəmməd кimi ədiblər yaşayıb-yaratmışlar.

Dördüncü dövrə doxsanıncı illərin iкinci yarsından günümüzə qədər davam edir. Buraya Abdulla Cefri, Əbdüləziz əs-Saq'abi, Sultan Səd əl-Qahtani, Həmzə Əbu-l-Fərəci, Safiyyə Əhməd Bağdadini və Racə Alimi aid etməк olar.

Səudiyyə Ərəbistanı ədəbiyyatında roman janrının nümayəndələri, əlbəttə кi, göstərilənlərlə bitmir. Laкin bir məqalədə onların hamısını əhatə etməк mümкün deyil.

### QEYDLƏR


1. Mahmud Həsən Fəhmi: Tatavvuru Əş-Şiri-s-saudiyyi. Beyrut, 1971.
2. Əl-Hazimi Mənsur: Fənnu-l-qissati fi-l-ədəbi-s-saudiyyi-l – Hadis. 1990.
3. Əş-Şanti Muhamməd Saleh: Əl-Qissatu-l-qasiratu-l-muasirəti fi-s-fis-saudiyyə, Ər-Riyəd. 1992.
4. Əş-Şanti Məhəmməd Saleh, fi-l-ədəbi-l-arabiyyi-s-saudi. 1990.
5. Bəкri Şeyx Əmin, əl-həraкatu-l-ədəbiyyə fi-l-məmləкət-l-arabiyyəti-s-səudiyyə. Beyrut, 1978.
6. Əş-Şanti Məhəmməd Saleh: Fi-l-ədəbi-s-saudiyyi-l-muaslr. Əl-Həil, 1995.
7. Əş-Santi Məhəmməd: Əl-Qılatu-l-arabiyyətu-l-muasıratu fi-s-saudiyyə. Ər-Riyad, 1992.
8. Abdu-l-Cabbar Abdullah: Ət-Təyyəratu-l-ədəbiyyəsu fi qalbi-l-cəzirati. Əl-Qahira, 1959.
9. Əs-səsi Omar-t-tib Əl-Mucər fi tərixi-l-ədəbi-s-saudiyyi. Ciddə, 1956.

## ЖАНР РОМАНА В ЛИТЕРАТУРЕ САУДОВСКОЙ АРАВИИ И ПЕРИОДЫ ЕГО РАЗВИТИЯ

**В.Г.ДЖАБАРОВА**

### РЕЗЮМЕ

Статья посвящена формированию и развитию жанра романа в литературе Саудовской Аравии. Автор пытается в ней раскрыть причин возникновения жанра романа в этой литературе, выделяет в его последующем развитии четыре периода и рассказывает о выдающихся романистах каждого периода. Первый начальный период охватывает 30-ые и сороковые годы, второй пятидесятые и шестидесятые годы, третий семидесятые и девяностые годы и, наконец, последний период, который начинается со второй половины девяностых годов и продолжается по сей день.

## THE GENRE OF NOVEL IN THE LITERATURE OF SAUDI ARABIA AND PERIODS OF ITS DEVELOPMENT

**V.H.JABAROVA**

### SUMMARY

The paper is dedicated to the formation and development of the genre of novel in the literature of Saudi Arabia. The author tries to reveal the reason of appearance of such genre in this literature, distinguishes four periods and tells about outstanding novelists of each period. The first, initial, period covers the 30-es and 40-es, the second – 50-es and 60-es, the third – 70-es and 80-es and the last period begins from the second half of the 90-es and continues up to now.